**Orucoğlu Z** Rəşadət nümunəsi // Respublika. - 2024. - 20 sentyabr. - **№ 205**. - S. 21.

**Astara şəhərində dünyaya göz açan elin qəhrəman oğlu Cəmil Qurbanzadə 13 sentyabr 2022-ci ildə Azərbaycan Ordusunun həyata keçirdiyi Azərbaycan-Ermənistan sərhəd toqquşması zamanı Vətən naminə mərdliklə döyüşüb, qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Sinəsini Ana Vətənə sipər edib məkrli düşmənə layiqli cavab verəndə Cəmil ömrünün 19-cu baharında idi. Həyat yolu nə qədər qısa olsa da, özündən sonra şərəfli, heç zaman silinməyəcək bir tarix yazdı. Vətənə sonsuz məhəbbət mücəssəməsinə dönən, qəhrəman həm də dövlət tərəfindən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə və "Vətən uğrunda" medalına layiq görülüb.**

Astara Pedaqoji Kollecinin direktoru, professor şəhid atası K.Kazımov və bir qrup əməkdaşı şəhid Cəmil Qurbanzadənin anım günü münasibətilə boya-başa çatdığı ailə ocağında olub, uyuduğu məzarını ziyarət etməklə önünə tər güllər düzüblər.

Bildirilib ki, Astara elinin igid oğlu Cəmil Qurbanzadə şəhər 2 saylı tam orta məktəbini bitirib 2020-ci ildə Azərbaycan Dövlət İdman Akademiyasının qiyabi şöbəsinə daxil olub. 2021-ci ilin aprel ayında əsgər yaşına çatıb və ordu sıralarına yola düşüb. Xidmət zamanı ilk gündən fəallığı, nizam-intizamı ona hörmət qazandırıb. Vətənini canından artıq sevməklə gözbəbəyi kimi qoruyub. Həmçinin onun igidliyi, mərdliyi, dürüstlüyü bütün əsgər yoldaşlarına nümunə göstərilib. Tərxis olmağına 18 gün qalmış şəhid olaraq əbədiyyət adlı dünyasına qovuşub.

Sentyabrın 12-si gecədən başlayaraq erməni quldurları respublikamızın dövlət sərhədlərinin Daşkəsən, Kəlbəcər, Laçın, Zəngilan istiqamətində genişmiqyaslı təxribata əl atıblar. Şanlı ordumuzun əsgər və zabitləri böyük rəşadət göstərərək, ölüm-dirim savaşında yağını məhv edib. Təxribatın qarşısını alarkən düşmən gülləsinə tuş gələn qeyrətli oğullarımızdan biri də şücaəti dillərdə dastan olan Cəmil Qurbanzadədir. Şərəfli ölümü ilə ürəklərdə əzəmətli abidə ucaldan şəhid Cəmil qərinələr boyunca xalq tərəfindən hər an ehtiramla xatırlanacaq.